

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 216 (23.378)

*16 noyabr 2019-cu il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Rusiya Federasiyasının Şimali Qafqaz respublikalarından olan bir qrup müsəlman din xadimindən ibarət nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev deyib ki, Şimali Qafqaz respublikalarının dini liderləri Azərbaycanda tez-tez qonaq olurlar. Artıq uzun illərdir ki, biz görüşür, söhbət edir, dinlərarası dialoq, təhsil, Qafqazın dini liderlərinin qarşılıqlı əlaqələri ilə bağlı mühüm məsələləri müzakirə edirik.

Müfti İsmayıl Berdiyev bildirib ki, biz hər dəfə buraya gələndə Azərbaycanda necə dəyişikliklər baş verdiyini görürük. Bütün bunlar Sizin sayənizdə mümkün olub.

* * *

Prezident İlham Əliyev noyabrın 15-də Qüds Sefardi ortodoks baş ravvini Şlomo Amarı qəbul edib.

* * *

Dövlətimizin başçısı həmin gün KAICIID Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin Baş katibi Feysəl bin Muammarı qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Simon Vizental Mərkəzinin həmtəsisçisi və sədr müavini, yəhudi din xadimi Rabbi Abraham Kuperi və ABŞ-ın Xristian Liderlər Konqresinin rəhbəri, yevangelist din xadimi Conni Muru qəbul edib.



### *17 noyabr Naxçıvan Muxtar Respublikası Dövlət Bayrağı Günüdür*

# Üçrəngli bayrağımız Naxçıvanda əbədi yüksəkliyə qaldırılıb



***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı haqqında" 2014-cü il 17 noyabr tarixli Sərəncamına əsasən hər il noyabr ayının 17-si Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü kimi yüksək səviyyədə qeyd edilir.***

Milli dirçəliş tariximizdə mühüm siyasi əhəmiyyət kəsb edən, 1990-cı il noyabrın 17-də ulu öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan parlamentinin ilk iclası ölkəmizdə mürəkkəb ictimai-siyasi proseslərin baş verdiyi dövrə təsadüf edirdi. Həmin dövrdə xalqımız milli azadlıq uğrunda mübarizəyə qalxmışdı. Lakin Azərbaycana rəhbərlik edənlər öz hakimiyyətlərini və imperiyanın maraqlarını milli maraqlardan üstün tutduqları üçün xalqın dirçəlişini mütərəqqi istiqamətə yönəldə bilmədilər. Müstəqillik arzularımızı, dövlətçiliyimizin dirçəliş ideyasını gerçəkləşdirə biləcək yeganə milli lider isə yalnız ulu öndər Heydər Əliyev idi.

Görkəmli dövlət xadiminin həmin vaxtlarda atdığı qətiyyətli addımlar Azərbaycanın siyasi tarixində daim milli idealların, qədim dövlətçilik ənənələrinin yaşadıldığı və inkişaf etdirildiyi məkan kimi xüsusi yerə malik olan Naxçıvanı milli azadlıq hərəkatının başlandığı, milli həmrəylik ideyalarının bərqərar olduğu diyar kimi yenidən mühüm siyasi mərkəzə çevirmişdi. Məhz bunun nəticəsidir ki, 1990-cı il noyabrın 17-si ölkəmizin müstəqillik tarixinə çox əhəmiyyətli tarixi gün kimi düşmüşdür. Həmin gün Azərbaycanın üçrəngli bayrağı 70 ildən sonra ilk dəfə Naxçıvanda dalğalandırılmış, dövlət atributlarımızla bağlı çox mühüm qərarlar qəbul edilmişdir. Hələ kommunist partiyasının hökm sürdüyü bir dövrdə böyük cəsarətlə qəbul edilmiş həmin qərarlar keçmiş ittifaq tarixində bir ilk, bu ittifaqın süqutuna aparacaq tarixi yolun başlanğıcı, digər müttəfiq xalqların müstəqillik yoluna salınmış işıq idi. Bu, ümumilikdə, Azərbaycan xalqının milli siyasi təfəkküründə əsaslı dəyişikliklərə, milli müstəqillik uğrunda hərəkatın geniş vüsət almasına səbəb olmuşdur.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin 1990-cı ilin iyulunda Naxçıvana qayıdışı və bu qədim Azərbaycan diyarında milli dövlətçiliyimizin bərpası istiqamətində atdığı tarixi addımlar nəinki Naxçıvanı, bütünlükdə Azərbaycanı məhv olmaq təhlükəsindən xilas etdi. Ulu öndər Naxçıvanda milli dirçəlişin əsasını qoymaqla Azərbaycanın müstəqil, demokratik və dünyəvi dövlət kimi fəaliyyət göstərməsi üçün mühüm siyasi və ideoloji mahiyyət daşıyan tarixi qərarların qəbul edilməsinə nail oldu.

1990-cı il noyabrın 17-də ümummilli lider Heydər Əliyevin sədrliyi ilə Ali Məclisin sessiyasında "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında" Qərarın qəbul olunması, SSRİ kimi imperiyanın hələ tarix səhnəsindən silinmədiyi bir dövrdə Naxçıvanın adından "sovet sosialist" sözlərinin çıxarılması çox böyük cəsarət tələb edirdi. Bununla ümummilli liderimiz, əslində, milli dövlətçiliyimizin dirçəlişi istiqamətində ilk böyük addımını atdı. Ulu öndərimizin sədrliyi ilə keçirilən həmin tarixi sessiyada məsələ də müzakirə olundu. Dahi şəxsiyyətin özünün işləyib hazırladığı və Ali Məclisdə yekdilliklə qəbul olunan "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" tarixi Qərarda deyilirdi:

"Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

*1. İlk Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsis edilsin.*

*2. Naxçıvan Muxtar Respublikasının digər dövlət rəmzi – Dövlət Himni və gerbi haqqında məsələ öyrənilib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə verilsin.*

*3. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağının bütövlükdə Azərbaycan SSR-in dövlət rəmzi kimi təsis edilməsi məsələsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin".*

Bundan sonra yeni qəbul olunmuş bayraq zala gətirilmiş, beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin 70 il əvvəl endirilmiş ayulduzlu üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi ucaldılmışdır.

Sonralar bu tarixi dövrü xatırlayan ulu öndər Heydər Əliyev deyəcəkdi: ***"Naxçıvanda yaşadığım müddətdə burada cəsarətli addımlar atıldı. 1990-cı il noyabrın 17-də biz Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında, mənim sədrlik etdiyim sessiyada ilk dəfə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul olunmuş Azərbaycan milli bayrağını qaldırdıq. Naxçıvan Muxtar Respublikasının dövlət atributlarını müəyyən elədik. Hələ kommunist partiyası da var idi, sovet hakimiyyəti də. Qərar qəbul etdik ki, Naxçıvan Muxtar Respublikasının adından "sovet sosialist" sözləri çıxarılsın. Çıxardıq və qərar qəbul etdik ki, Naxçıvanın milli bayrağı qəbul olunsun – milli bayraq 1918-ci ildə Xalq Cümhuriyyəti tərəfindən qəbul edilmiş üçrəngli bayraqdır. Bu bayrağı sessiyanın salonuna gətirdik, başımızın üstünə vurduq".***

Azərbaycanımızın üçrəngli bayrağı bizim milli kimliyimizin, dəyərlərimizin, ideologiyamızın ifadəsidir. Bu bayraq çox çətinliklərdən, keşməkeşlərdən keçərək bu günümüzə gəlib çatıb. Milli suverenliyimizin simvolu, müqəddəs dövlətçilik rəmzlərindən sayılan bayrağımıza ümumxalq sevgisinin formalaşdırılması Heydər Əliyev siyasi yolunun əsasını təşkil edir.

Naxçıvan Muxtar Respublikasında dövlət rəmzlərinin qorunması, yaşadılması və təbliğinə böyük diqqət göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında" 2014-cü il avqustun 22-də imzaladığı Sərəncam dövlət rəmzlərimizə göstərilən ehtiramın göstəricisi, Heydər Əliyev yoluna sədaqətin təzahürüdür. Azərbaycan dövlətçiliyi üçün tarixi əhəmiyyət kəsb edən bir gündə – noyabrın 17-də açılış mərasimi keçirilən Dövlət Bayrağı Meydanı və Muzeyində Ali Məclisin Sədri çıxış edərək demişdir: ***"Dövlətçilik tariximizdə mühüm yer tutan dövlət rəmzləri və bayraqlar bir tərəfdən nadir dövlətçilik irsinin varisləri kimi bizdə iftixar hissi doğurursa, digər tərəfdən Naxçıvanda mövcud olmuş qədim dövlətlərin tarixini öyrənməyə də geniş imkanlar yaradır. Naxçıvan şəhərində yaradılan Dövlət Bayrağı Meydanı və Muzeyi bu baxımdan mühüm əhəmiyyətə malik olacaqdır".***

Muxtar respublika paytaxtının ən yüksək məkanında yerləşən Bayraq Muzeyini hər il yüzlərlə insan ziyarət edir. Muzeydə ümummilli liderimizin təşəbbüsü ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında qəbul olunan "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" Qərar və həmin tarixi günə aid fotoşəkillər, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən muzeyə təqdim olunmuş Azərbaycan Respublikasının Dövlət Himninin mətninin və Dövlət Gerbinin təsvir olunduğu xatirə hədiyyələri, Naxçıvan Muxtar Respublikasının müxtəlif illərdə qəbul olunmuş konstitusiyaları, Rusiya muzeylərindən tapılaraq gətirilmiş Naxçıvan xanlığının dövlət və döyüş bayraqları nümayiş etdirilir. Həmçinin muzeydə inzibati xəritələr, döyüşçü libasları, qədim pul nişanları da sərgilənir.

1990-cı illərdə qədim diyarımızda gedən ictimai-siyasi proseslərə nəzər yetirdikdə bir daha aydın olur ki, ulu öndərimiz Heydər Əliyev o dövrdə siyasi və dövlətçilik fəaliyyəti ilə bugünkü qüdrətli və müstəqil Azərbaycan Respublikasının inkişafının əsasını qoymaqla yanaşı, həm də milli ideologiyanın, milli özünüdərkin formalaşmasını təmin etmişdir. Məhz həmin illərdə ümummilli liderimizin rəhbərliyi ilə Naxçıvan parlamentinin fəaliyyəti və muxtariyyətin verdiyi imkanlar burada Azərbaycan dövlətçiliyinin əsaslarını təşkil edən mühüm siyasi qərarların qəbul olunmasına şərait yaratmışdır. Həmin illərdə muxtariyyətimizin qorunub saxlanılması istiqamətində də əhəmiyyətli işlər görülmüşdür. Məhz bunun nəticəsidir ki, sabitlik və inkişafımızın zəmini olan muxtariyyətin 95 illik yubileyini qeyd etdiyimiz doğma Naxçıvanımızın da səmasında üçrəngli bayrağımız qürurla dalğalanır.

Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq".***

**"Şərq qapısı"**

# Dövlət sirrinin mühafizəsi, kadr və kargüzarlıq işinin təşkili mövzusunda seminar keçirilib

*Noyabrın 15-də Naxçıvan Muxtar Respublikasında Dövlət orqanları, müəssisə və təşkilatlarında dövlət sirrinin mühafizəsi, kadr və kargüzarlıq işinin təşkili mövzusunda seminar keçirilib.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov seminarı açaraq deyib ki, tədbir Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə keçirilir. Seminarın təşkilində əsas məqsəd muxtar respublikada fəaliyyət göstərən dövlət orqanları, müəssisə və təşkilatlarda dövlət sirrinin mühafizəsi, kadr işinin və kargüzarlıq vəziyyətinin yaxşılaşdırılmasıdır. Çünki dövlət orqanlarında kadr və kargüzarlıq məsələləri ümumi fəaliyyətin əsasını təşkil edir. Ancaq bəzi hallarda müxtəlif dövlət qurumlarında kadr və kargüzarlıq sahələrinə məsul şəxslər öz vəzifələrinin öhdəsindən layiqincə gələ bilmirlər. Bu da həmin dövlət orqanlarında bu sahəyə nəzarətin zəif olmasından, bəzi hallarda isə bu işin aidiyyəti olmayan şəxslərə həvalə edilməsindən irəli gəlir. Nəticədə, kadr təyinatlarında sənədləşmə işinin düzgün aparılmaması və həmin qurumlarda kargüzarlıq işinin düzgün qurulmaması kimi hallara rast gəlinir ki, bu da müxtəlif neqativ halların yaranmasına səbəb olur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Təltif və kadrlarla iş sektorunun müdiri Gözəl Şahməmmədova çıxış edərək demişdir ki, dövlət orqanlarında kadr və kargüzarlıq işinin təşkili həmin orqanların fəaliyyətinin əsasını təşkil edir. İstər kadr işinin təşkili, istərsə də kargüzarlığın həyata keçirilməsi ilə bağlı qanunvericilik aktları qəbul olunmuş və hüquqi əsas yaranmışdır. Lakin dövlət orqanlarının müvafiq bölmələri qanunvericiliyin düzgün tətbiqinə məsuliyyətsiz yanaşır. Ciddi nöqsanlara yol verirlər. Son vaxtlar bu işin təşkili ilə bağlı aparılan təhlillər göstərir ki, aidiyyəti qurumlar kadr və kargüzarlıq sahəsində məsul işçilərə texniki və yardımçı vəzifələr kimi yanaşır, işin əhəmiyyətinə və ciddiyyətinə diqqət etmirlər. Belə ki, Naxçıvan Muxtar Respublikasının Ali Məclisində yaradılan mərkəzi və yerli icra hakimiyyəti orqanlarının aparatları üzrə reyestrə təqdim olunan arayışlar, ştat cədvəlləri yararsız, səliqəsiz halda və yanlış məlumatlarla işlənir, vakant vəzifələr düzgün qeyd edil-



mir. Bununla yanaşı, orqanlarda kadr işinin təşkili aidiyyəti olmayan şəxslərə tapşırılır. Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsində ümumi şöbənin müdiri və aparıcı məsləhətçi vəzifəsində çalışan şəxslər olduğu halda, bu işin təşkili hüquqşünasa həvalə edilmişdir. Bu da onu deməyə əsas verir ki, dövlət orqanlarında kadr və kargüzarlıq işi nəzarətsiz qalmışdır. Əlbəttə, bəzi dövlət orqanları istisnadır. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsini, Şərur Rayon İcra Hakimiyyətini, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsini, Dövlət Televiziya və Radio Verilişləri Komitəsini, Dövlət Statistika Komitəsini və Turizm Departamentini nümunəvi orqanlar kimi göstərmək olar.

Qeyd edilmişdir ki, yol verilən əsas nöqsanlardan biri məlumatların vaxtında və ya dərhal təqdim olunmamasıdır. Belə ki, dövlət orqanları istənilən dəyişikliklə bağlı dərhal və ya dəyişiklik olmadıqda bununla bağlı hər ay Naxçıvan Muxtar Respublikası Ali Məclisinin aid sektoruna məlumat verməli olduğu halda, məlumat verilmir, bu müddət bəzən bir-iki aya qədər uzanır. Hətta bəzi təşkilatlar – Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi, Dövlət Arxiv İdarəsi, Şahbuz Rayon İcra Hakimiyyəti, Televiziya və Radio Şurası, Dövlət Nəqliyyat Xidməti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin aidiyyəti sektoruna təşkilatın kadr vəziyyəti ilə bağlı aylıq heç bir məlumat vermir. İnsan Hüquqları üzrə Müvəkkil Aparatı tərəfimizdən kadr dəyişikliyi ilə əlaqədar məlumat tələb edildiyi halda təqdim etməmişdir. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyində, Maliyyə Nazirliyində, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində kadr dəyişikliyi olduğu halda, heç bir məlumat verilməmişdir. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi isə müvafiq məlumatları mütəmadi gecikdirir. Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsində mühasib vəzifəsini tutan şəxs 1 avqust 2019-cu il tarixdən vəzifəsindən azad olunduğu halda hələ də heç bir məlumat verilməmiş, vakansiya cədvəlində vakant vəzifə kimi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin aid sektoruna göndərilməmişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisində yaradılan mərkəzi və yerli icra hakimiyyəti orqanlarının aparatları üzrə reyestrə işçilər haqqında hazırlanan bioqrafik arayışlar təqdim edilməlidir. Digər bir nöqsan həmin bioqrafik arayışlarda məlumatların səhv və səliqəsiz işlənməsidir. Dövlət Energetika Xidmətində kadr işinin təşkili üzrə baş məsləhətçi, məsləhətçi vəzifələri olduğu halda, orta təhsilli şəxsə həvalə edilmişdir. Bu da orqanlarda kadr və kargüzarlıq işinə biganə münasibətin nəticəsidir.

Gözəl Şahməmmədova demişdir ki, dövlət qulluqçularına ixtisas dərəcələri verilərkən qanunvericiliyin tələbləri gözlənilməlidir. Belə ki, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq ixtisas dərəcələri dövlət qulluqçusunun tutduğu vəzifəyə, qulluq stajına və ixtisas dərəcəsində qulluq müddətinə uyğun olaraq, habelə əvvəllər verilmiş ixtisas dərəcəsi nəzərə alınmaqla ardıcıl verilir. Digər bir nöqsan dövlət orqanlarında çalışan dövlət qulluqçularına ixtisas dərəcələrinin qanunamüvafiq olaraq verilməməsidir və yaxud verilmiş ilkin və ya növbəti ixtisas dərəcələri ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin aidiyyəti sektoruna göndərilən məlumatların yenilənməməsidir. Dövlət qulluqçularına ixtisas dərəcələri verilərkən, ancaq Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi bioqrafik arayışları yeniləyir. Dövlət qulluqçularının vəzifələri dəyişdirilərkən qanunvericiliyin tələbləri gözlənilməlidir. Belə ki, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq staj, sınaq müddəti gözlənilmədən, ixtisas dərəcəsi verilmədən dövlət qulluqçusunun vəzifəsinin dəyişdirilməsi yolverilməzdir. Mövcud nöqsanlardan biri qanunvericiliyin bu tələbinin orqanlarda gözlənilməməsidir. Belə ki, Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi sınaq müddəti ilə işə qəbul olunan aparıcı məsləhətçini ixtisas dərəcəsi almadan, daimi dövlət qulluğuna qəbul edilmədən baş məsləhətçi vəzifəsinə keçirmişdir.

Bildirilmişdir ki, seminarda iştirak edən dövlət orqanlarının məsul şəxsləri qeyd olunan nöqsanların aradan qaldırılması üçün səylərini artırmalı və kargüzarlıq işinin düzgün qurulmasını təmin etməlidirlər.

Sonra dövlət qulluqçusunun şəxsi işinin tərtib edilməsi qaydaları haqqında ətraflı məlumat verən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Təltif və kadrlarla iş sektorunun müdiri Gözəl Şahməmmədova Naxçıvan Muxtar Respublikası Ali Məclisinə sənədlərin təqdim olunması qaydalarını seminar iştirakçılarının diqqətinə çatdırmışdır. Belə ki, həmin qaydalara əsasən kadr anketlərdə bütün məlumatlar tam doldurulmalı, boş hissə saxlanmamalı, arayış və anketlərə vurulan şəkillər qanunauyğun ölçüdə və formada olmalıdır. Həmçinin təşkilatlarda kadrlarla bağlı vəzifə dəyişiklikləri olduğu gün, dəyişiklik olmadıqda isə hər ayın sonu təşkilatda kadr dəyişikliyinin olmamasına dair məlumat çap və elektron formada təqdim olunmalıdır. Dövlət orqanlarının ştat cədvəlində dəyişiklik olduqda isə ştat cədvəlinin surəti göndərilməlidir.

Seminarda Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin şöbə rəisi Heydər Vəliyev çıxış edərək muxtar respublikanın dövlət orqanlarında, ordu, birləşmə və hissələrdə, idarə, müəssisə və təşkilatlarda dövlət sirrinin mühafizəsinin, məxfilik rejiminin, məxfi rabitə növlərinin və şifrləmə işinin təhlükəsizliyinin təmin edilməsi sahəsində qarşıda duran vəzifələrdən danışıb, fəaliyyətin təşkili ilə bağlı qanunvericiliyin tələblərini diqqətə çatdırıb.

Sonra mövzu ilə bağlı suallar cavablandırılıb, tədbir iştirakçılarına "Dövlət qulluğu ilə bağlı normativ-hüquqi sənədlər" və "Dövlət sirrinin mühafizəsi ilə bağlı normativ-hüquqi sənədlər" topluları təqdim olunub.

**"Şərq qapısı"**

# Tibb fakültəsi 20 illik yubileyini qeyd edib

***Naxçıvan Dövlət Universitetində Tibb fakültəsinin 20 illik yubileyi münasibətilə keçirilən tədbiri giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov fakültənin uğurlu fəaliyyətini muxtar respublikada əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan təhsil və səhiyyə siyasətinin bəhrəsi olduğunu vurğulayıb. Rektor 2019-cu il 14 iyun tarixdə Qurtuluş Günü münasibətilə Tibb fakültəsinin yeni tədris kompleksinin istifadəyə verilməsini, ali təhsil ocağındakı xəstəxanada müasir tədris şəraitinin yaradılmasını fakültənin 20 illiyinə töhfə kimi dəyərləndirib.***



Tibb fakültəsinin dekanı, dosent Elsevər Əsədov çıxışında qeyd edib ki, 1999-cu ildə universitetin Təbiətşünaslıq fakültəsinin nəzdində Pediatriya ixtisasına 25 nəfərlik tələbə qəbulunun aparılması ilə muxtar respublikada ali tibb təhsilinin təməli qoyulub. Bildirilib ki, 2003-cü ildən müstəqil fəaliyyət göstərən fakültədə hazırda 680-ə yaxın tələbə təhsil alır. Onlardan 300-dən çoxu xarici ölkə vətəndaşıdır. 2012-ci ildən rezidentura hazırlığına başlanan fakültədə 24 ixtisas üzrə rezident hazırlığı həyata keçirilir, hazırda 56 həkim-rezident də muxtar respublikanın xəstəxanalarından tədris-klinik baza kimi istifadə edir.

Sonra fakültənin yaranması və inkişaf yolunu əks etdirən videoçarx nümayiş olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid çıxışında bildirib ki, muxtariyyət tarixinin 95 illik yubileyini qeyd etdiyimiz əlamətdar bir ildə Naxçıvanda səhiyyə sisteminin dövlət tərəfindən tənzimlənməsinin də 95 ili tamam olur. Bu ikiqat bayram muxtar respublikamızın qabaqcıl ali təhsil müəssisəsi olan Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin 20 illik yubileyinə təsadüf edir.

"Ölkəmizdə səhiyyənin inkişafı xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır", – deyən Surə Seyid dahi öndərin Azərbaycana rəhbərliyinin hər iki dövründə həyata keçirdiyi genişmiqyaslı quruculuq və inkişaf konsepsiyasından, muxtar respublikada səhiyyənin bütün sahələr üzrə inkişafından bəhs edib. Bildirib ki, 1969-1987-ci illərdə ulu öndər Heydər Əliyevin qayğısı ilə Naxçıvanda yeganə orta ixtisaslı tibbi kadrlar hazırlayan Tibb Məktəbinin və tibb təhsilinin inkişafına dair bir sıra qərarlar qəbul edilib.

Vurğulanıb ki, tibb sahəsində muxtar respublikanın həkimlərə olan tələbatını ödəmək üçün dahi öndər Heydər Əliyevin uğurlu siyasətinin nəticəsi olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə 1999-cu ildə Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq fakültəsi nəzdində Pediatriya ixtisasının yaradılması ilə tibb təhsili sahəsində yeni mərhələnin əsası qoyulub.

Diqqətə çatdırılıb ki, bu gün muxtar respublikada əhalinin sağlamlığının qorunması istiqamətində kompleks tədbirlər görülür. Həmin tədbirlər sırasında tibb təhsili üzrə kadr hazırlığı mühüm yer tutur. Yüksəkixtisaslı kadr hazırlığı və dünya tibb elminə inteqrasiya məqsədilə xarici universitetlərlə əlaqələr genişləndirilir. Universitet nəzdində xəstəxananın yaradılması, fitoterapiya və digər laboratoriyaların qurulması, ən son texniki imkanlara malik tədris prosesinin təşkili tibb təhsilini beynəlxalq standartlara uyğunlaşdırır. Tibb fakültəsinin məzunları Naxçıvanda və onun hüdudlarından kənarda – Amerika Birləşmiş Ştatları, Braziliya, İspaniya, Almaniya, İtaliya, Türkiyə və digər ölkələrdə tibb üzrə təhsillərini davam etdirir, yüksək peşəkarlıqla əhalinin sağlamlığı keşiyində dururlar. 2019-cu ilin iyun ayında Tibb fakültəsi üçün müasir tibbi avadanlıqlarla təchiz edilmiş yeni tədris kompleksinin istifadəyə verilməsi bu sahədə aparılan inkişaf strategiyasına ən bariz nümunədir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid Naxçıvan Muxtar Respublikası Ali Məclisi adından Tibb fakültəsinin 20 illik yubileyi münasibətilə universitetin professor-müəllim heyətini və tələbələri təbrik edib, sağlam gələcək naminə təhsildə onlara daha böyük nailiyyətlər arzulayıb.

Naxçıvan Muxtar Respublikasının Səhiyyə naziri Niyazi Novruzov çıxışında muxtar respublikada səhiyyəyə göstərilən dövlət qayğısından bəhs edib. Bildirilib ki, muxtar respublikanın tibbi kadrlara olan tələbatını Naxçıvan Dövlət Universitetinin məzunları ödəyir. Bunun nəticəsidir ki, 44 tələbə müxtəlif xəstəxanalara növbəli iş rejiminə göndərilib, 134 məzun muxtar respublikada müxtəlif səhiyyə müəssisələrində həkim, 12 nəfər isə baş həkim kimi çalışır.

Azərbaycan Tibb Universitetinin elmi işlər üzrə prorektoru, tibb üzrə fəlsəfə doktoru, dosent Rauf Bəylərov təmsil etdiyi kollektivin yubiley təbriklərini çatdırıb.

Həmin universitetin Uşaq xəstəlikləri kafedrasının müdiri, akademik Adilə Namazova müəllim və tələbə kollektivini fakültənin yubileyi münasibətilə təbrik edib, onlara peşə fəaliyyətlərində uğurlar arzulayıb.

Fakültənin hazırda təhsillərini Amerika, İspaniya, Şimali Kipr, Türkiyə, Almaniya, Nigeriyada davam etdirən məzunlarının ürək sözləri səsləndirilib.

Universitet xəstəxanasının baş həkimi, ilk məzunlardan olan tibb üzrə fəlsəfə doktoru, dosent Elmar Rzayev də çıxış edərək müəllimləri ilə birgə çoxminli universitet kollektivinin üzvü olmaqdan qürur duyduğunu bildirib.

Tədbirin bədii hissəsində universitetin İncəsənət fakültəsinin müəllim və tələbələri musiqi və rəqs nömrələri ifa ediblər. Sonra Naxçıvanın təbii dərman bitkilərini, qida məhsullarını əks etdirən sərgi nümayiş olunub.

Sonda 2019-cu ildə təhsildə qazandıqları nailiyyətlərə, fakültənin ictimai işlərində yüksək fəallıqlarına görə bir qrup tələbəyə universitetin fəxri fərmanları təqdim olunub.

**Səadət ƏLİYEVA**

## Eqidius Navikas: Litva ilə muxtar respublika arasında qarşılıqlı əlaqələrin inkişafı hər iki tərəf üçün faydalıdır

*Litva Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Eqidius Navikas noyabrın 14-də Naxçıvan Muxtar Respublikasına səfərə gəlib.*





Qonaq əvvəlcə ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, Heydər Əliyev Muzeyində ümummilli liderin həyat və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara baxıb.

Naxçıvan Biznes Mərkəzinə gələn səfirə məlumat verilib ki, mərkəzin sərgi salonunda 94 müəssisənin 196 növdə və 1232 çeşiddə məhsulu, 65 ailə təsərrüfatında istehsal olunan 20 növdə 157 çeşiddə məhsul, sənətkarlar tərəfindən hazırlanan əl işləri, rəsm əsərləri, xalçalar və Naxçıvan Muxtar Respublikasının istehsal müəssisələrinin xəritəsi nümayiş olunur.

Naxçıvan Avtomobil Zavodunun istehsal potensialı ilə maraqlanan qonağa bildirilib ki, burada istehsal prosesi konveyer üsulu ilə təşkil edilib. Hazırda zavodda 17 modeldə minik və yük avtomobilləri istehsal olunur.

Diplomat "Gəmiqaya Mebel Fabriki" MMC-də də olub. Müəssisədə məlumat verilib ki, burada ağac profilli qapı və pəncərələr, modern və klassik üslubda dizayn edilmiş mebellər, sosial və inzibati binalar üçün müxtəlif avadanlıqlar istehsal edilməklə yanaşı, dizayn-dekorasiya xidmətləri də göstərilir.

Səfərin ikinci günündə diplomat Naxçıvan Dövlət Universitetində olub, universitetin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin tələbələri üçün Litva-Azərbaycan əlaqələrinə dair mühazirə oxuyub.

Səfir Duzdağ Fizioterapiya Mərkəzi, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey və "Naxçıvanqala" Tarix-Memarlıq Muzey kompleksləri, Naxçıvan Dövlət Xalça Muzeyi, Dövlət Bayrağı Meydanı və Muzeyi ilə də tanış olub.

Noyabrın 15-də Litva Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Eqidius Navikasın Naxçıvan Muxtar Respublikasına səfəri başa çatıb.

Eqidius Navikas "Şərq qapısı" qəzetinə müsahibəsində səfərinin məqsədi barədə danışaraq deyib: – Mən Litvanın Azərbaycandakı səfiri kimi fəaliyyətimə sentyabr ayında başlamışam və bu, Naxçıvan Muxtar Respublikasına ilk səfərimdir. Naxçıvana gəlişimin məqsədi qarşılıqlı maraqdoğuran məsələləri müzakirə etmək və gələcək əlaqələrimizin perspektivliyini öyrənməkdir.

Səfir qeyd edib ki, qısa səfərim çərçivəsində bir sıra əhəmiyyətli görüşlər keçirdim, qabaqcıl sənaye müəssisələri ilə tanış oldum, ikitərəfli əlaqələrimizin inkişafı üçün geniş imkanların mövcud olduğunu gördüm. Görüşlərdə, əsasən, iqtisadiyyat, mədəniyyət və təhsil məsələləri barədə müzakirələr apardıq. Düşünürəm ki, Litva ilə muxtar respublika arasında iqtisadi, mədəni, kənd təsərrüfatı və turizm sahələrində qarşılıqlı əlaqələrin inkişafı hər iki tərəf üçün faydalı olacaqdır.

Naxçıvan Dövlət Universitetinin tələbələri ilə görüşünün də maraqlı keçdiyini deyən səfir bildirib ki, gələcəkdə muxtar respublika ilə təhsil sahəsində qarşılıqlı təcrübə mübadiləsinin, eyni zamanda müəyyən istiqamətlər üzrə əlaqələrin inkişafı mümkündür.

✍ **Nail ƏSGƏROV**

## Gələcək hüquqşünaslar Orta İxtisas Polis Məktəbində olublar



*Naxçıvan Dövlət Universitetində Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrlə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbində görüş keçirilib.*

Görüşdə çıxış edən nazirliyin Təşkilat-İnspeksiya İdarəsinin rəisi, polis polkovniki Rəşad Seyidov bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul, eləcə də 2019-cu il 3 aprel tarixli müvafiq sərəncamları elmin nəzəriyyə və təcrübə ilə inteqrasiyasına, təhsildə fərqli yanaşma mexanizminin formalaşmasına və ən əsası dövlət kadr siyasətinin inkişafına stimul yaradıb.

Diqqətə çatdırılıb ki, təhsilin davamlı inkişafını təmin edən sərəncamların qəbul edilməsində əsas məqsəd güclü təhsil infrastrukturunun, yüksəkixtisaslı kadr hazırlığını təmin edən dövlət proqramlarının, layihələrin uğurlu tətbiqinə təkan verməkdən ibarətdir. Bu zərurətdən yaranan "Startap Naxçıvan" hərəkatının xüsusi önəmi vardır. Belə layihələrə dövlət tərəfindən xüsusi qayğı ilə yanaşılır və layihələrin "İdeyadan başlanğıca" çevrilməsi üçün bütün lazımi dəstək göstərilir. Startap layihələr hazırlayan qrupların tərkibinə hüquq təhsili alan qabaqcıl tələbələrin cəlb edilməsi xüsusilə vacibdir.

Vurğulanıb ki, məlum sərəncamla Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisası digər hüquq-mühafizə orqanları ilə yanaşı, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin də hamiliyinə verilib. Tərəfinizdən hazırlanan startap layihələrin hüquqi müstəvidə dəyərləndirilməsində hami olaraq nazirlik öz səlahiyyətləri çərçivəsində bütün lazımi köməklikləri göstərəcək.

Rəşad Seyidov deyib ki, hazırda nazirlik sistemində "Təhlükəsiz şəhər" layihəsi çərçivəsində yeni nəsil videomüşahidə kameralarının quraşdırılması, müasir tələblərə cavab verən kadr potensialının formalaşdırılması istiqamətində nazirliyin Orta İxtisas Polis Məktəbinin yaradılması uğurlu startap layihələrinin bir hissəsi kimi qiymətləndirilir.

Naxçıvan Orta İxtisas Polis Məktəbinin rəisi, polis polkovnik-leytenantı Kamil Məmmədəliyev tələbələrlə görüşdə bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun yüksək diqqət və qayğısı nəticəsində muxtar respublikamızın hüquq-mühafizə, o cümlədən daxili işlər orqanları üçün müasir iş şəraiti yaradılıb. Bu sahədə görülən işlərin tərkib hissəsi olaraq daxili işlər orqanlarının ixtisaslı kadrlarla komplektləşdirilməsini təmin etmək üçün Ali Məclis Sədrinin 2018-ci il 5 mart tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbi yaradılıb. Bu, muxtar respublikamızda gənclərə göstərilən növbəti qayğının bariz nümunəsidir.

Sonra tələbələr Orta İxtisas Polis Məktəbinin tədris kompleksi ilə yaxından tanış olublar. Məktəbin Kriminalistika kabinəsində onlara yazı xətlərinin xüsusi əlamətləri, məhkəmə fotoqrafiyası, ayaq izinin surətinin hazırlanması, trasologiya, daktiloskopiya, kriminalistik ballistika barədə danışılıb, müəyyən vasitələrdən istifadə qaydaları göstərilib.

Avtonəqliyyat vasitələrinin istismarı və yol hərəkəti kabinəsi də şagirdlərə xeyli bilgi verib. Burada onlar nizamlayıcının siqnalları, yol üzərində istifadə olunan işarələr, xəbərdarlıq, üstünlük, qadağan, servis, əlavə məlumat, məlumatverici – göstərici nişanlar və sair haqqında ətraflı məlumat alıblar.

İnteraktiv atəş hazırlığı sinfindəki məşğələdə də tələbələr fəal iştirak ediblər.

3 min kitab fondu olan kitabxanada ümummilli liderimiz Heydər Əliyevin və ölkə Prezidenti cənab İlham Əliyevin həyat və fəaliyyətini əks etdirən siyasi ədəbiyyatlar, eləcə də oxunması zəruri olan kitablardan ibarət guşələr tələbələrdə yüksək təəssüratlar yaradıb.

✍ **Muxtar MƏMMƏDOV**

## Startap portalının əhəmiyyətindən bəhs edən tədbir keçirilib

"Naxçıvan" Universitetinin Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə birgə keçirdiyi tədbirdə ali təhsil ocağının Riyaziyyat və informatika kafedrasının müəllimi Şamil Hümbətov çıxış edərək bildirib ki, tələbələrin innovativ ideyalarının inkişaf etdirilməsi baxımından belə tədbirlər çox əhəmiyyətlidir. Muxtar respublika rəhbərinin diqqət və qayğısı ilə startap ekosisteminin inkişaf etdirildiyini vurğulayan Şamil Hümbətov startapın inkişafı üçün universitetdə gənclərə hər cür şərait yaradıldığını qeyd edib.



Rabitə və Yeni Texnologiyalar Nazirliyinin şöbə müdiri, işçi qrupunun üzvü Hüseyn Əsgərli internet portalının texniki imkanları barədə tədbir iştirakçılarına ətraflı məlumat verib. Qeyd edib ki, "Startap Naxçıvan" hərəkatı muxtar respublikada investisiya mühitini yaxşılaşdırmaqla istedadlı gənclərin üzə çıxarılmasına, onların nailiyyətlərinin yeni sistemin tələblərinə uyğun qiymətləndirilməsinə, yaradıcı düşüncə və inkişafa xidmət edən ən yaxşı layihələrin aşkarlanmasına, innovativ ideyaların uğurlu biznes sahəsinə çevrilməsinə dəstək məqsədi daşıyır. İnnovativ təhsil mühiti müəllimlərə də öz üzərində işləməklə peşəkarlıqlarını artırmağa və sağlam rəqabət mühitinin formalaşmasına şərait yaradır.

Vurğulanıb ki, həyatımızın bütün sahələrində innovativ layihələrin tətbiqinin zəruri olduğu bir dövrdə startap portalının həyata keçirilməsi çox uğurlu təşəbbüsdür. Bu portal ölkəmizdə milli startap infrastrukturunun inkişaf etməsinə, yeni biznes inkubatorların yaradılmasına imkan verəcək və startapçılar arasında əlaqələrin gücləndirilməsinə xidmət edəcəkdir. Portal tələbələrin yaradıcı düşünmə, yeni ideyaların, mövcud məsələlərə fərqli yanaşma üslubunun üzə çıxarılmasında mühüm rol oynayacaqdır.

Tədbir diskussiya şəraitində davam etdirilib, suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

*Yeni nəşrlər*

## Tarix elminə dəyərli töhfə

*Ölkəmizdə qadın siyasətinin və qadın hərəkatının müxtəlif aspektlərinin gender münasibətlərində araşdırılması ciddi elmi və ictimai maraq doğurur. Buna görə də müasir dövrdə ölkəmizdə hüquqi dövlət, demokratik cəmiyyət, yeni iqtisadi münasibətlər sistemi quruculuğunun davam etdiyi bir şəraitdə qadınların cəmiyyətdəki rolunun araşdırılması zəruri və əhəmiyyətli məsələlərdəndir. Naxçıvan Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə elmlər doktoru Sevinc Abbasovanın yeni nəşr edilən "Azərbaycan Respublikasının ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafında qadınların rolu (1970-2015-ci illər)" adlı dərs vəsaiti, ilk növbədə, müstəqillik dövrü Azərbaycan tarixşünaslığı üçün son dərəcə aktuallığı ilə səciyyələnir.*




Dərs vəsaiti "Giriş", 4 fəsil, "Nəticə" və istifadə olunmuş ədəbiyyatların siyahısından ibarətdir. Əsərin "Giriş" hissəsi rəsmi formada yazılmış və mövzu haqqında ilkin təsəvvür yaratmaq məqsədi daşıyır. Aydın olur ki, yeni nəşr həm Azərbaycan tarixinin müəyyən mərhələsini öyrənmək, həm də ümummilli lider Heydər Əliyevin dövlətçilik təlimində gender probleminə ayrıca diqqət yetirilməsi baxımından aktualdır.

Kitabın "Azərbaycan qadını 1970-1990-cı illərin əvvəllərində" adlı birinci fəsli 2 yarımfəsildən ibarətdir. "1970-1980-ci illərin ilk yarısında Azərbaycan dövlət qadın siyasəti və qadınların sosial tərəqqisi" adlı I yarımfəsildə müəllif 1969-cu ildə ulu öndər Heydər Əliyevin birinci dəfə Azərbaycanda ali hakimiyyətə gəlişindən sonra ölkənin sosial-iqtisadi, mədəni-mənəvi və siyasi həyatında baş verən mütərəqqi dəyişiklikləri ümumi şəkildə dəyərləndirib. Dahi şəxsiyyətin ardıcıl səyləri nəticəsində cəmiyyət həyatının fəal üzvünə çevrilən Azərbaycan qadını 1970-ci illərdən sonrakı dövrdə də üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlib. I fəslin növbəti yarımfəslində də tədqiq edilən dövrün yüksək elmi səviyyədə dəyərləndirildiyini görürük.

Kitabın "Azərbaycan Respublikasında dövlət qadın siyasəti" adlı II fəsli də yeni tarixi dövrdə qadın və cəmiyyət probleminin elmi əsaslarla öyrənilməsi baxımından maraq doğurur. Bu fəsil 3 yarımfəsli özündə birləşdirir. Müəllif belə bir elmi qənaətə gəlir ki, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasında qadın siyasəti daim dövlətin diqqətində olub, məhz dünyaşöhrətli dahinin səyləri ilə ölkədə sabitlik əldə edildikdən sonra hüquqi dövlətin Azərbaycan modeli yaradılıb və bu yeni dövlət modelində qadın və cəmiyyət probleminin prioritetliyi daim nəzərə alınıb.

Kitabın"Azərbaycanın sosial-iqtisadi və mədəni həyatında qadınların iştirakı" adlı III fəslində də cəmiyyət həyatında qadınların rolunun üç istiqamət üzrə öyrənildiyini və qiymətləndirildiyini görürük. Belə ki, 1990-cı illərin ikinci yarısından başlayaraq ölkə iqtisadiyyatında həyata keçirilən mütərəqqi islahatlar geniş şəkildə təhlil olunub, ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən sosial-iqtisadi tərəqqi strategiyasının Azərbaycana qazandırdığı uğurlar dəyərləndirilib, ölkəmizin sosial-iqtisadi həyatında qadınların rolu məsələsi bütün yönləri ilə aydınlaşdırılıb. Cəmiyyətimiz üçün mühüm əhəmiyyət kəsb edən məsələlərdən bəhs edən müəllif göstərir ki, Azərbaycanda azad sahibkarlığın inkişafına dövlət təminatının verilməsindən qadınlar da gərəyincə faydalanıblar. Müəllif Azərbaycanda qadın sahibkarlığının inkişaf tarixini mərhələlərə ayırıb, hər mərhələnin xarakterik xüsusiyyətlərini müəyyənləşdirib, bu sahədə daha böyük uğurların əldə ediləcəyinin labüdlüyünü məxsusi vurğulayıb. Eyni zamanda Azərbaycan qadınlarının sosial-mədəni həyatı araşdırılıb.

Dərs vəsaitinin "Azərbaycanın ictimai-siyasi həyatında qadınların iştirakı" adlı IV fəslindəki təhlillər də məntiqi təsir bağışlayır. Fəsil daxilində öyrənilən problemin istiqamətləri nəzərə alınmaqla müəllif elmi təhlillərini üç yarımfəsil üzrə aparıb, bu zaman xronoloji ardıcıllığın və sistemliyin gözlənilməsinə məxsusi diqqət yetirib.

Adıçəkilən nəşr tarix üzrə elmlər doktoru, gendersünas Sevinc Abbasovanın elmi ümumiləşdirmə qabiliyyətini təsdiqləməklə bərabər, son dərəcə qiymətli nəzəri müddəaların irəli sürülməsi ilə səciyyələnir. Zəngin faktlar əsasında yazılmış, elmi yeniliyi, nəzəri və təcrübi əhəmiyyəti ilə diqqəti cəlb edən bu kitab oxucular üçün qiymətli mənbə, tarix elminə dəyərli töhfə ola bilər.

✍ **Gülcamal TAHİROVA**

# Bayrağım mənim, vüqarım mənim!

## Naxçıvan şəhərindəki Dövlət Bayrağı Meydanında düşüncələr



***Naxçıvan şəhərinin müqəddəs bir məkanındayam – Dövlət Bayrağı Meydanında... Milli rəmzlərimizə böyük sevgi və dərin ehtiramın ifadəsi kimi bu meydan istifadəyə veriləndən həmişə insanlarla dolu olur. İlin bütün fəsillərində, qışın qarında, çovğununda qəlbimizə hərarət, yayın istisində bir ürək sərinliyi bəxş edir yurddaşlarımıza. Ölkəmizin digər bölgələrindən, yaxın və uzaq xarici ölkələrdən gələn qonaqlar da bu ünvanı böyük həvəs və maraqla ziyarət edirlər. Meydandan ətrafa, üzüaşağı baxanda qarşımızda qədim Naxçıvanın müasirliklə vəhdətdə olan panoramı açılır. Gözəllik qarşısında qalırsan. Ülvi bir gözəllik səni ovsununa alır. Buraya müqəddəslik qazandıran isə meydanda gecə-gündüz dalğalanan üçrəngli bayrağımızdır.***

Bura ağsaqqallar da, gənclər də, uşaqlar da gəlirlər. Çünki bu meydan hər bir naxçıvanlıda qürur yaradan məkandır. Yadıma tanınmış şairimiz Asim Yadigarın bayrağımızla bağlı qələmə aldığı silsilə şeirlərdən biri düşür:

*Odlar yurdu eşqinlə çiçək açır, gül açır,*
*Şirindilli körpələr "Bayraq" – deyə dil açır,*
*Şəfəqin hər ölkəyə, hər qitəyə nur saçır,*
*Dostlar baxıb sevinir, qara geyinir yağı –*
*Azərbaycan bayrağı!*

Bu gün sənin ad günündür, mənim əziz bayrağım! Göylü, qırmızılı, yaşıllı bayrağım! Göylərə ucalan bayrağım! 70 il səni bizdən alsalar da, Dahi Azərbaycanlı Heydər Əliyev səni özümüzə qaytardı. Sənə yeni həyat verdi. 70 il sənsiz qalmış Azərbaycan səması səni bağrına basdı. 70 ildən sonra sən yenə göylərdəsən. Naxçıvan torpağından səmaya qalxmağın isə hər bir naxçıvanlıya ikiqat sevinc yaşadıb. Azərbaycan durduqca, bu sevinc də yaşanacaq:

*Kölgəndən qorxanları*
*Yandırdı için-için.*
*Ulu Heydər ucaltdı*
*Səni yaşatmaq üçün –*
*Azərbaycan bayrağı!*

Müxtəlif dövlətlərin səmalarında da səni tez-tez görürük, fəxr edirik, qürur duyuruq varlığınla! Bizimlə bir olmağınla! Müstəqilliyimizin, azadlığımızın, dinimizin, inkişafımızın, tərəqqimizin rəmzisən, sən!

Həmişə buraya üz tutanda artıq haqq dünyasına qovuşmuş bir el ağsaqqalının söhbətini xatırlayıram. Deyirdi ki, uşaq idim. Evimizdə Novruz bayramına hazırlıq görülürdü. Zirzəmidə gözüm qatlanmış şəkildə taxçaya qoyulmuş bir parçaya sataşdı. Təəccübləndim ki, bunu nə vaxt və kim buraya gətirib qoyub? Axı hər gün bir neçə dəfə girirdim bu zirzəmiyə. Zirzəminin taxçasında az-az işlətdiyimiz məişət əşyaları qoyulardı. Nə isə. Əlimi uzadıb parçanı götürdüm. Göy, qırmızı, yaşıl zolaqları, üstündə aypara və səkkizguşəli ulduz şəkli olan parça idi. Tez yuxarıya – evə çıxdım. Elə qapı ağzında nənəmlə üz-üzə gəldim: – Ay nənə, bu nədir? – deyə soruşdum. Nənəm əlimdəki parçanı görüb bir qədər duruxdu. Bu, bir an çəkdi. Nənəm anamı çağırıb parçaya işarə edərək: – Apar yerinə qoy, – dedi. Üzünü mənə tutaraq: – Böyüyəndə bilərsən o nədir.

1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində ümummilli liderimizin sədrliyi ilə keçirilən sessiyada 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı zala gətiriləndə artıq nənəm həyatda yox idi, dünyasını dəyişmişdi.

Sessiyadan bir gün sonra anamın uşaq vaxtı zirzəmidən götürdüyüm o bayrağı ütüləidiyini görəndə nənəmin sözlərini xatırladım. Elə bil ki, anam da ürəyimdən keçənləri başa düşürmüş. Elə onda öyrəndim ki, bu bayraq babadan oğula, oğuldan nəvəyə... ötürülə-ötürülə saxlanılıb. Ancaq üzə çıxarmayıblar. Ovaxtkı rejim buna imkan verməyib.

Həmin gün, həmin an sessiya iştirakçılarının, sessiyanı televiziya kanalı ilə izləyənlərin baxışlarını xəyalımda canlandırmağa çalışıram. O baxışlardan "oxuduqlarımı" göz önünə gətirmək istəyirəm. O gün Naxçıvanda bayram sevinci yaşandı, bayraq sevinci yaşandı. Bu sevinci 29 ildir ki, yaşayırıq, həmişə yaşayacağıq.

... Meydanı gəzə-gəzə bu milli rəmzimizlə bağlı son illərdə görülən işləri xatırlayıram. Elə bu meydan və burada yaradılmış muzey, bölgələrimizdə istifadəyə verilən bayraq meydanları bu gün hər bir azərbaycanlının ən çox üz tutduğu ünvandır.

2014-cü ilin 17 noyabrı. O gün qədim Naxçıvan torpağında daha bir təntənə yaşadıq, tariximizə qızıl hərflərlə yazıldı: Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən möhtəşəm bir Sərəncam imzalandı. Sərəncama əsasən noyabr ayının 17-si hər il Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilir.

*Dalğalanır bayrağım, köksümə sığmır ürək,*
*Qəlbim toy libasında, bu toyu çaldıran var.*
*Öz-özünə qalxmayıb, ucalmayıb o bayraq*
*O bayrağı bayraqtək ucaldan, qaldıran var.*

Yuxarıda da dediyim kimi, tez-tez ziyarət etdiyimiz bu məkanda bir ünvan da var: Muxtariyyətdən sonra Naxçıvan səmasında dalğalanan bayraqlarımızın qorunduğu muzey. Burada bir məsələni xüsusi vurğulamaq istəyirəm: Artıq neçə ildir ki, muxtar respublikamızda dövlət qulluğuna yeni işə qəbul olunan gənclər bu muzeydə dövlətimizə, dövlətçiliyimizə, bayrağımıza sadiq olacaqlarına and içirlər.

Daha bir qürur ünvanımız: Dünyanı lərzəyə gətirən Teymurləngin qoşunlarının 14 il mühasirədə saxlayaraq ala bilmədikləri Əlincəqala! Səni o möhtəşəmliyə qaldıranların bu torpağa bağlılıqları artıq bütün dünyaya yayılıb – neçə ildir ki, sən məğrur-məğrur Əlincəqalada dalğalanırsan. Yaxın-uzaq ellərdən Naxçıvana gələnlər, buranı ziyarət edənlər təəccüblərini gizlədə bilmirlər. Belə yurd sevgisini, milli rəmzlərə böyük məhəbbəti yüksək dəyərləndirirlər.

Bütün bunlar dövlətçiliyimizin intişar tapdığı qədim Naxçıvan torpağında dövlət rəmzlərini uca tutmağın təzahürü, dünəni yaşatmaq, sabaha ötürmək amalıdır.

***Dalğalan uca səmalarda, bayrağım mənim, vüqarım mənim!***

✍ **Muxtar MƏMMƏDOV**

# İntellektual oyunlar üzrə çoxnövçülük turnirinə start verilib

*Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya və Gənclər Fondunun birgə təşkilatçılığı ilə gənc dövlət qulluqçuları arasında Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş intellektual oyunlar üzrə çoxnövçülük turnirinə Naxçıvan Şahmat Mərkəzində start verilib.*



Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri İsmayıl Qəribli və Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev çıxış ediblər.

Sonra turnirin qaydaları barədə məlumat verilib.

"Nə? Harada? Nə zaman?" intellektual oyununda komanda iştirakçılarına 48 sual ünvanlanıb. Sualları düzgün cavablandırmış və ilk 16 yeri tutmuş Ədliyyə, Maliyyə, İqtisadiyyat, Gənclər və İdman, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, Naxçıvan Şəhər, Culfa, Sədərək, Babək və Ordubad Rayon İcra hakimiyyətlərinin, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin, Dövlət Sosial Müdafiə Fondunun, Dövlət Miqrasiya Xidmətinin, Ali Məhkəmənin, Ombudsman Aparatının, muxtar respublika Prokurorluğunun komandaları ikinci mərhələdə iştirak etmək hüququ əldə ediblər. Turnirin növbəti mərhələsi – "Breyn Rinq" intellektual oyunu 22 noyabr 2019-cu il tarixdə Naxçıvan Gənclər Mərkəzində keçiriləcəkdir.

Onu da qeyd edək ki, intellektual oyunlar üzrə çoxnövçülük turnirində ilk üç yeri tutmuş komandalar təşkilatçılar tərəfindən təltif olunacaqlar.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

# Beynəlxalq Tələbə-Gənclər Həftəsində fərqlənənlər mükafatlandırılıb

*Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində 10-17 noyabr – Beynəlxalq Tələbə-Gənclər Həftəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında keçirilən yarışların qaliblərinin mükafatlandırılması mərasimi olub.*

Tədbirin aparıcıları Beynəlxalq Tələbə-Gənclər Həftəsi barədə məlumat veriblər. Bildirilib ki, Azərbaycanda dövlət gənclər siyasətinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Ölkəmizə rəhbərliyinin bütün dövrlərində dahi şəxsiyyət sosial-iqtisadi, elmi-mədəni, təhsil və digər sahələrdə gənclərin fəal iştirakının təmin olunmasını diqqət mərkəzində saxlayıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə dövlət gənclər siyasəti özünün keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyub.

Tədbirdə muxtar respublikamızda da dövlət gənclər siyasətinin uğurla davam etdirilməsi haqqında ətraflı məlumat verilib.

Sonra Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi tərəfindən həyata keçirilən "Muxtar respublikanın ən yaxşı Tələbə-Gənclər Təşkilatı" müsabiqəsi çərçivəsində yarışmaların qalibləri mükafatlandırılıb.

İlk olaraq "Təbiətsevər" yarışmasının qalibləri mükafatlandırılıb. Müvafiq olaraq ilk 3 pillədə Naxçıvan Müəllimlər İnstitutunun, Naxçıvan Dövlət Texniki Kollecinin və Naxçıvan Tibb Kollecinin komandaları qərarlaşıblar.

"Naxçıvanda gənc olmaq" mövzusunda məqalə yarışmasında Nuray Seyidova (Naxçıvan Müəllimlər İnstitutu), İlahə Allahverdiyeva (Naxçıvan Dövlət Universiteti) və Tükəzban Mustafazadə (Naxçıvan Dövlət Texniki Kolleci) qalib adını qazanıblar.

"Vətənpərvər" qısametrajlı film yarışmasında qalib adına Naxçıvan Dövlət Universitetinin komandası layiq görülüb. Naxçıvan Müəllimlər İnstitutunun komandası ikinci, "Naxçıvan" Universitetinin komandası isə üçüncü olub.

Naxçıvan Dövlət Universitetinin tələbələri Anar Rəsulzadə və Kənan Hacızadə, "Naxçıvan" Universitetinin tələbəsi Pünhan Məmmədli "On/off" video yarışmasının qalibləri olub.

"Muxtar respublikanın ən yaxşı Tələbə-Gənclər Təşkilatı" müsabiqəsinin qalibi adına Naxçıvan Dövlət Universitetinin Tələbə-Gənclər Təşkilatı layiq görülüb. "Muxtar respublikanın fəal Tələbə-Gənclər Təşkilatı" adını isə Naxçıvan Müəllimlər İnstitutunun və Naxçıvan Dövlət Texniki Kollecinin müvafiq təşkilatları qazanıblar.

Daha sonra "10-17 noyabr Beynəlxalq Tələbə-Gənclər Həftəsi"nin qalibləri elan olunub. "Xəmsə" milli intellektual oyununda "Naxçıvan" Universitetinin "Şəms" və "Brilyant", Naxçıvan Dövlət Texniki Kollecinin "Zirvə" komandaları mükafatlandırılıblar.

Əcnəbi tələbələr arasında keçirilən "Azərbaycanı tanı" intellektual oyunu üzrə ilk 3 pillədə Naxçıvan Dövlət Universitetinin tələbələri Nevruz Gökhan, Yelda Gül Ergінsoy və Berkay Yaşar qərarlaşıb.

Naxçıvan Dövlət Texniki Kollecinin "Güc birlikdədir", Naxçıvan Tibb Kollecinin "Birlik" və Naxçıvan Dövlət Universitetinin "Karvan" komandaları Şən və Hazırcavablar klubları arasında keçirilən müsabiqədə mükafata layiq görülüblər.

Tələbələr arasında keçirilən stolüstü tennis üzrə birincilikdə qızlar arasında Xurşud Mahmudova (Naxçıvan Dövlət Universiteti), Alsu Məmmədli ("Naxçıvan" Universiteti) və Günay Bağırova (Naxçıvan Müəllimlər İnstitutu), oğlanlar arasında isə Elyas Zabibi, Kubilay Kumulay və Aydın Lütfi (Naxçıvan Dövlət Universiteti) qalib adını qazanıblar.

Səba Şirzad, Nərgiz Məmmədli və Aynur Məmmədova (Naxçıvan Dövlət Universiteti) isə badminton yarışının qalibləri olublar. Naxçıvan Dövlət Universitetinin digər tələbəsi Bilqeyis Seyidova isə fərqləndiyinə görə mükafata layiq görülüb.

Yüngül atletikanın kross qaçışı üzrə birincilikdə qızlar arasında Gülayə Cəfərova,



Xatun Orucova (Naxçıvan Dövlət Universiteti), İlkanə Babayeva, Pəri Hacıyeva və Aydan Rzayeva (Naxçıvan Dövlət Texniki Kolleci) ilk 5 pillədə qərarlaşıblar.

Oğlanların yarışında isə Saleh Cəfərov (Naxçıvan Musiqi Kolleci), Sənan Əşrəfov, Abbas Babayev ("Naxçıvan" Universiteti), Taleh Yaqubov və Babaxan Əhmədov (Naxçıvan Müəllimlər İnstitutu) finiş xəttinə hamıdan tez çatıblar.

Ali və orta ixtisas təhsili müəssisələrinin oğlan tələbələri arasında keçirilən voleybol üzrə birinciliyin qalibi isə "Naxçıvan" Universitetinin komandası olub. Naxçıvan Dövlət Texniki Kollecinin komandası ikinci, Naxçıvan Dövlət Universitetinin komandası isə üçüncü pillədə qərarlaşıblar.

Mükafatları Gənclər və İdman naziri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin sədri Azad Cabbarov, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi Anar İbrahimov və Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev təqdim ediblər.

Sonda Naxçıvan Musiqi Kollecinin tələbələrinin ifasında səsləndirilən musiqi proqramı iştirakçılar tərəfindən alqışlarla qarşılanıb.

✍ **Ceyhun MƏMMƏDOV**


**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

**Nömrəyə məsul:** Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 789